*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 39-44*

https://doi.org/10.62837/2025.1.39

**XALİDƏ RƏHİMOVA**
***Lənkəran Dövlət Universiteti, fəlsəfə doktoru proqramı üzrə dissertantı***
***Orc 0009-0005-1599-3433***
***E-mail: qumu_88@mail.ru***

# YAŞAR RZAYEVİN YARADICILIĞINDA DÖVRÜN TİPİK İNSAN XARAKTERLƏRİNİN BƏDİİ TƏSVİRİ

**Xülasə:** Yaşar Rzayev 1941-ci il aprelin 7-də Lənkəran şəhərində anadan olmuş, orta məktəbi doğulduğu şəhərdə bitirdikdən sonra 1959-1964-cü illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində ali təhsil almışdır. İlk hekayələri "Aprel çiçəkləri", "Gənc qələmlər" almanaxlarında və "Azərbaycan" jurnalında çap olunan Yaşar Rzayev universiteti bitirdikdən sonra Lənkərana qayıtmış, 1964-1971-ci illərdə "Leniçi" qəzetində ədəbi işçi, məsul katib vəzifələrində çalışmışdır. Yaşar Rzayev keçən əsrin 70-ci illərindən başlayaraq partiya və dövlət işində məsul vəzifələrdə çalışmış, Azərbaycanın Ali Sovetinə deputat seçilmiş, müstəqillik illərində ali məktəblərdə dərs demişdir.

**Açar sözlər:** hekayə,lirik-emosional üslub, mövzu, daxili aləm, məntiqi nəticə

**ХАЛИДА РАХИМОВА**

## ХУДОЖЕСТВЕННОЕ ОПИСАНИЕ ТИПИЧНЫХ ЧЕЛОВЕЧЕСКИХ ХАРАКТЕРОВ ВРЕМЕНИ В ТВОРЧЕСТВЕ ЯШАРА РЗАЕВА

**Резюме**:

Яшар Рзаев родился 7 апреля 1941 года в городе Лянкяран, после окончания средней школы в городе своего рождения, в 1959-1964 годах получил высшее образование на филологическом факультете Азербайджанского государственного университета. Яшар Рзаев, первые рассказы которого были опубликованы в альманахах «Апрельские цветы», «Молодые ручки» и журнале «Азербайджан», после окончания университета вернулся в Лянкяран и в 1964 году работал литературным работником и ответственным секретарем в газете «Леничи». -1971. Начиная с 70-х годов прошлого века Яшар Рзаев работал на ответственных должностях в партийных и государственных делах, избирался депутатом Верховного Совета Азербайджана, в годы независимости преподавал в высших школах.

**Ключевые слова:** рассказ, лирико-эмоциональный стиль, тема, внутренний мир, логическое завершение.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 39-44*

**KHALIDA RAHIMOVA**

## THE GRAPHIC DESCRIPTION OF TYPICAL HUMAN CHARACTERS OF THE PERIOD IN THE CREATIVE WORK OF YASHAR RZAYEV

**SUMMARY**

Yashar Rzayev was bornon 7 April 1941 in Lankaran city, finished the secondary school in the city where he was born, then he studied in Azerbaijan State University on the faculty of Philology in 1959-1964. His first stories were published in "Aprel chichekleri", "Genjgelemler" anthologies and in "Azerbaijan" journal, the Yashar Rzayev graduated from university and came back to Lankaran, he worked in the positions of literary worker and responsible secretary in "Lenichi" newspaper in 1964-1971. Yashar Rzayev worked in responsible positions in party and within the state since 70s of the past century, he was selected a deputy to the Supreme Soviet of Azerbaijan and he taughtin higher schools in the years of independence.

**Key words:** story, lyrical and emotional style, subject, internal world, logical conclusion

Yaşar Rzayevin həcmcə o qədər də böyük olmayan "Gecə eşelonu" kitabına dörd hekayəsi və iki etüdü daxil edilmişdir**. (**Rzayev Yaşar. Gecə eşelonu. Hekayələr. Bakı: Gənclik, 1972, 32 səh.)

Mövzusu 60-cı illərin Azərbaycan həyatı üçün xarakterik olan hadisələrdən götürülmüş bu əsərlərin hər birində təsvir olunduğu zamanın insanlarının iç dünyası, onların məişət qayğıları ilə yanaşı, daxili aləmi ilə də tanışlıq imkanı qazanırıq.

Mənsur şeiri xatırladan, lirik-emosional üslubun xas olduğu "Uçub getdi göyərçinlər" hekayəsində iki yeniyetmə, dünənə qədər bir həyətdə oynayan, bir-birlərindən çəkinməyən, lakin indi böyüyən, özlərini tanımağa başlayan Eldənizlə Gülbənizin uşaqlıq dünyasından yeniyetməlik dünyasına keçid mərhələsinin müəyyən anları təsvir olunur.

Hekayənin sonluğu, Eldənizin dilindən deyilənlər əsas ideya ilə yaxından səsləşir: "Başımı qaldırıb göyə baxdım. Göy tərtəmiz idi. Uzaqda bir dəstə göyərçin göründü. Mayallaq vururdular. Gülbənizi xatırladım. Bayaq dediyi sözlər yadıma düşdü: "Uşaq deyilsən ki!"**.** Rzayev Yaşar. Gecə eşelonu. Hekayələr. Bakı: Gənclik, 1972, 32 səh.)

"Ata" hekayəsinin süjeti həm o illər, həm də müasir zamanımızla yaxından səsləşən bir mövzudan alınmışdır. Təsərrüfatların birində rəhbər vəzifədə işləyən Cavanşir başı iş-gücə qarışdığından ailə qayğılarından uzaqlaşıb. Qızı Afətin nə vaxt böyüyüb boya-başa çatması, sevib-sevilməsi barədə arvadı Xatının xəbərdarlığından sonra ayılan ata başa düşür ki, bütün vaxtını təsərrüfat işlərinə sərf edib alilə məsələləri ilə maraqlanmaması onun səhvi və günahıdır.

Qızının telefonda gənc bir oğlanla danışığını təsadüfən paralel qoşulmuş digər telefonla istəmədən eşidən ata anlayır ki, "gözlərində ilk əvvəl ürkəklik, qorxu oxunan, lakin bu qorxunun arxasında böyük, nəhayətsiz bir bəxtiyarlıq, ilk məhəbbətin alaovları olan" qızının məhəbbətinə mane olmağa onun haqqı yoxdur. Ona görə də "qızının gözlərindən bu bəxtiyarlığı, ilk məhəbbət alovlarını oxuduğu üçün, ürəyinin çırpıntılarını eşitdiyi üçün və qızı ilə öz arasındakı on illik "ayrılığı" gördüyü üçün Cavanşir sanki təslim oldu, mat-mat Afətə baxdı, haçandan-haçana taqətsiz, qəmli bir səslə dedi:

-Mənə çay gətir..."

"Ata" hekayəsindən məntiqi nəticə çəxarmağı oxucuların öhdəsinə buraxan müəllif "Dekabr yağışı" hekayəsində sevimli həyat yoldaşı vaxtsız vəfat etmiş gənc bir idarə müdirinin tənhalıqdan doğan kədərinin təsvirini vermişdir.

Müəllifin "Gecə eşelonu" hekayəsində əhvalat əyalət şəhərlərindən birində baş verir. Dörd aydır ki, hərbi xidmətdə olan oğlu Vahiddən evə, sovxozda sürücü işləyən atasına teleqram gəlib. Qeyd olunub ki, bizi fevralın 25-də saat yeddidə Biləcəridən vaqonla yola salacaqlar. Arvadı Sənəmin onu da Biləcəriyə aparsın ki, oğlunu o da görsün xahiş-minnətinə baxmayan ata işdən iki günlük icazə alıb Bakıya yollanır. Əsgər valideynlərinin Biləcəridə övladları ilə görüşlərini yaddaqalan, təsirli səhnələrlə təsvir edən müəllif bir zamanlar müharibə iştirakçsı olmuş atann xatirələrinə də hekayədə müəyyən yer verib. "Körpə" etüdündə ipi əlindən çıxıb göyə qalxan şarlarının dalınca ağlayan, sənə başqa, təzə şarlar alacağam deyilsə də, ağlamağı səngiməyən inadkar körpə obrazını yaradan müəllif "Veteran" etüdündə "hər dəfə bayram gələndə elə bil cavanlaşan, ötən illərə, gəncliyinə qayıdan" bir qocanın portretini yaratmağa müvəffəq olur. Məlum olur ki, bu veteranın gəncliyi inqilabi tətillərdə, həbslərdə, döyüşlərdə keçmiş, bugünkü xoşbəxtliyi isə onun əzablarının, yaralarının əvəzidir

70-ci illərin ortalarından başlayaraq, Yaşar Rzayevin yaradıcılığında yeni tendensiya və təzə mövzulu əsərlər özünə yer almağa başlayır. İlk hekayələr kitabında daha çox müsbət xarakterli hadisələri qələmə alan müəllifin indi yazdıqlarında iki cəhət özünü qabarıq şəkildə büruzə verir. Bu əsərlərdə bir yandan həyatın xoş anları təsvir olunursa, digər tərəfdən daha çox dövrün, mühitin neqativ cəhətlərinin təsvirinə üstünlük verir. "Ana ömrü" və "Bir il keşmişdi" hekayələri mövzu və üslub baxımından müəllifin əvvəlki hekayələrinə daha yaxındır. Belə ki, burada təsvir olunan əhvalatlar və hadisələrin təqdimatı, əsərlərdəki lirik-psixolaji ovqat daha çox müsbət notlar üzərində köklənmişdir. "Bir il keçmişdi" hekayəsində Bakıda yaşayan, məzuniyyətini keçirmək üçün rayona gələn oğlunu evləndirmək istəyən, lakin arzusu ürəyində qalan anaının iztirablarından, özündən razı oğulun evlənmək əvəzinə Bakıya çağırılıb iş yoldaşlarının toyunda iştirak etdikdən sonra Kislovodskiyə istirahətə getməsi və kənd qəbiristanlığında rast gəldiyi üç qadından

bəhs edilir. Təqdimatdan belə anlaşılr ki, qəbiristanlıqda rast gəldiyi qadınlardan biri ölənin anası, biri arvadı, biri isə qızıdır.

Bir ildən sonra kəndə qayıdan oğul təbii ki, yenə evlənmir, lakin qəbiristana gedib "uzundraz yasin oxuyana üç manat verib" yasin oxutdurduqdan sonra qəribə bir mənzərə ilə rastlaşır. Keçən il burada dəfn olunan qəbrinüstünə onun büstü qoyulub. Lakin keçən il qəbrin üstündə şivən qoparan "nə həmin qadın buradaydı, nə də sünbülü hörüklü qız. Qarı tək-tənha qəbrin yanında oturmuşdu, sızıldaya-sızıldaya ağı deyirdi."

Y. Rzayevin "Dənizin təmiz havası" hekayəsində qoyulan problem XX əsrin 70-ci illərində vəzifəsindən sui-istifadə edib natəmiz işlərlə məşğul olan kişilərin və onların puluna tamah salan pozğun qadınların həyatından alnmışdır.

"Beş dəqiqəlik yol" hekayəsində avtobusda yol gedənlərin bir-biri ilə mübahisələri, gənclərin yersiz hərəkətləri və s. bu kimi məsələlərə münasibət bildirən müəllif, "Kim çala bilir" hekayəsində idarəyə təzəcə müdir qoyulmuş bir nəfərin oyunbazlğından, kollektivi bir növ barmağına dolamağından danışır. Müəllifin təhkiyəsindən belə məlum olur ki, təzə müdir kimi kollektivin üzvləri də baməzə adamlardır. Hərə bir müsiqi alətində "çalıb" müdiri oynatdıqları kimi, əslində müdir onları "oynadır" və son olaraq işçilərə belə deyir: "İndiyəcən siz çalırdınız, mən oynayırdım. Elədir? Əlbəttə, elədir. Bəs bundan sonra neyləyəcəyik? Bundan sonra da bu idarədə mən çalacağam, siz oynayacaqsınız? Başa düşdünüzmü?"

Satirik deyim tərzi, açıq tənqid üsulu müəllifin "Üç", "Papamın dişi ağrıyır", "Təkamül" və "Dadaş qohum axtarır" hekayələri üçün xarakterik cəhətlərdir. Birinci hekayədə uşaq bağçasında üçdən artıq saya biməyən birisinin dayısı, əmisi, bibisi və digər havadarları sayəsində üçdən artıq qiymət almadan "oxuyub"ali təhsil alması, iş icrası olaraq zay tikinti işləri görməsi tənqid olunursa, "Papamın dişi ağrıyır" hekayəsində yalan danışmaq və şəraba aludəçilk pislənilir. "Təkamül" hekayəsindəki Həsrətov əvvəllər təqsiri deyilərkən haldan-hala düşən, abırlı bir işçi ikən, sonralar məhz müdirin yersiz danlaqları və töhmətləri ucbatından söz götürənin birinə çevrilmiş, hətta üzünə tüpürüləndə belə heç bir şey olmayıbmış kimi halını pozmur. Müəllif adamları bu vəziyyətə salan zəmanəyə acı-acı gülərək yazlr: "Bəli, bu Həsrətovun aylarla, illərlə davam edən təkamül prosesinin zirvəsi idi. Fəlsəfədən az-çox baş çıxaranlar Həsrətovun simasında təkamülün qələbəsinə heyranlıqla baxırdılar." "Dadaş qohum axtarır" hekayəsindəki Dadaş arağa qurşanıb "Adamım olsaydı...." təfəkkürü ilə günlərini zaya verən, özünə əməlli-başlı gün-güzəran düzəltməyi bacarmayan adamların tipikləşdirilmiş obrazıdır. Bu adam eyni zamanda yaltaq və yalançıdır. İdarələrinə təzə müdir qoyulduğunu biləndən sonra necə olursa-olsun, onunla yaxınlıq etmək istəyir, axtarıb onun yaxın-uzaq qohumlarını tapır ki, birtəhər təzə müdirin qılığına girə bilsin. Lakin bu arzusu da ürəyində qalır. Çünki kassir Həsən onu qabaqlamış, "həmin müdirsiz günlərdə Dadaşdan cəld tərpənib təzə müdiri özünə "əmioğlu" çıxarmışdı." Hekayələrin təhilindən göründüyü kimi, yazıçı

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 39-44*

Yaşar Rzayev həyat həqiqətlərinə sadiqlik nümayiş etdirmiş, zəmanəsinin həm işıqlı, həm də qaranlıq cəhətlərini verməyi bacarmışdır. Yaşar Rzayevin "Əks-səda" povestində XX əsrin əllinci illərində, müharibədən sonra Lənkəranda cərəyan edən bir sıra məsələlərə toxunulmuşdur. Bir sıra köməkçi obrazların iştirak etdiyi povestdə əsas obrazlar Tofiq və Mirişdir. Hadisələr, demək olar ki, ataları müharibəyə gedib qayıtmayan bu iki məktəb yaşlı uşaq ətrafında cərəyan edir. Tofiqin anası varsa, Miriş ata-ana himayəsindən məhrumdur. Qoca nənəsi ilə yaşayır və sərbəstlik həm onun davranıçına, həm də dərslərinə təsir edib. Zirək, daxilən saf və xeyirxah olan Miriş kiçik yaşlarından həyatın sərt sınaqları ilə üzləşib. Nəzarətsizlik onu siqaretə, kimsəsizlik isə zəhmətə alışdırıb. Atasından qalma həyəti becərmək, bazarda su satmaqla ruzisini qazanan bu yeniyetmənin daxilində bir işıq var. O, dərslərini yaxşı oxuyan, lakin məktəbli çantası olmayan Tofiqə doktor Rəsulovun oğlu Hazimin çantasına oxşayan çanta almaq istəyir. Onu özü ilə bazara, sərin quyu suyu satmağa razı salır ki, qazandıqlarını bir yerə qoyub həsrətində olduğu çantanı ala bilsinlər.

Tofiqin zəhmətkeş anası və kiçik qardaşı Mustafa ilə münasibətləri, sonralar uzaq qohumları Cahangir Şahmuradovun evinə ayaq açması, orta məktəbi əla qiymətlərlə bitirib Bakıya ali təhsil almağa yollanması, tapşırılsa belə sulaları bilə-bilə cavab verməməsi və tibb institutuna girməkdən imtina edib gələcəkdə memar olmaq arzusu ilə yaşaması əsərdə canlı, inandırıcı səhnələrlə təsvir edilmişdir.

Müəllifin təsvir etdiyi bazar mühiti, orada çalışan Murtuz əmi, Möhsün, "nəçənnik" Muxtarov XX əsrin 50-ci illərinin Lənkəran şəhərinə xas olan tipik səhnələri və tipik insanlarıdır. Murtuz və Möhsün xalis bazar əxlaqı ilə yaşayan dələduzlar, Muxtarov isə müharibə görmüş, yeniyetmələri alverdən çıkindirib onları oxutmağa səy göstərən ilk baxışda zəhmli, hirsli, əslində xeyirxah bir insandır. Biz onun xeyirxahlığının bariz nümunəsi ilə bazarda tutulub otağına gətirilən Tofiqə olan münasibətində görürük. Tofiqin cəbhədə həlak olmuş Mahmud müəllimin oğlu, bazarda su satmaqla məqsədinin məktəbli çantası almaq olduğunu biləndə kövrələn Muxtarov heç nə demədən, heç bir minnət qoymadan gedib Tofiqə həsrətində olduğu çantanı alır və tapşırır ki, yaxşı oxusun, gələcəkdə ad-san sahibi olan peşələrin birinə yiyələnsin. Povestdə qardaşı Ağamirzənin cəbhədə həlak olmasından bir neçə il sonra Duvannıdan yenidən doğma yurduna qayıdıb qardaşı oğlu Mirişin haqqına yiyə durub evi və həyəti öz adına keçirən Əlimusanın, ona bu işdə kömək edən çaş Abdullanın iyrənc sifətlərini açan müəllif, cəbhədə kontuziya almış sürücü Cabbarı onlara qarşı qoyur, onu haqq-ədalət tərəfdarı kimi təqdim edir.

Y.Rzayevin ənənəvi mövzuda yazdığı bu povestində mübarizə, əsasən iki qütbdə cəmləşən insalar arasında gedir. Təbii ki, müəllif əsərində xeyirin şər üzərində qələbəsini təmin edir. Belə ki, Mirişin qanuni evi özünə qaytarılır, heç bir minnət götürməyən Tofiq isə arzularına çatmaq üçün zəhmətə qatlaşıb həyatda özünü tapmaq istəyir. "Yaşar Rzayev hələ 60-cı illər ədəbi mühitində nasir, istedadlı

publisist kimi tanınıb. Həyatın sərt dolanbaclarında şoxlu maneələrlə rastlaşsa da, qələmini yerə qoymayıb, həmişə də yaradıcılıq axtarışında olub.”

Vaqif Yusiflnin i “Ədəbiyyat” qəzetində çap olunan “Cənubdan gələn səslər” məqaləsində oxuyuruq: ...Burada qeyd edim ki, Cənub bölgəsində, xüsusilə Lənkəranda nəsr janrı da poeziya ilə birgə addımlayır. Vaxtilə 60-80-ci illərdə o bölgədə yalnız bir beçə nasirin –Məmmədhüseyn Əliyevin, Əlisa Nicatın, Yaşar Rzayevin nəsr əsərlərindən başqa bir uğurlu nümunə yox idi. İlk növbədə Yaşar Rzayev haqqında. Uzun müddət Lənkəranda—partiya-sovet orqanlarında məsul vəzifələrdə çalışan, iki dəfə rayonun icra başçısı təyin olunan Yaşar müəllim lap gəncliyindən, Leninçi qəzetində çalışarkən ədəbi fəaliyyətə başlayıb. Elə gənc yaşlarında “Gecə eşalonu” və “Əka-səda” hekayələr, povestlər kitabları nəşr olunub. Bu hekayələr içində “Vəlinin kupletləri” ona bir yazıçı kimi böyük etimad, inam yaratdı.

**Problemin aktuallığı.** 60-90-cı illər Lənkəran nasirləri içərisində mövzularının aktuallığı, köhnə streotiplərdən uzaqlaşıb dövrün neqativ cəhətlərini göstərmək və insanın daxili aləminə nüfuz etmək səyi ilə seçilən yazıçılardan biri Yaşar Rzayevdir.

**Problemin elmi yeniliıyi.** XX əsrin 60-90-cı illərinin bədii nəsrindən Yaşar Rzayevin yaradıcılığı mühüm yer tutur. Bu dövrdə iki kitabı işıq üzü gorməsinə baxmayaraq, hekayələri ilə dövrü mətbuatda müntəzəm çıxış edib. Bütövlükdə Yaşar Rzayev doqquz kitabın müəllifidir, filologia üzrə fəlsəfə doktorudur, çoxlu sayda məqalə və elmi məqalələrin, oçerk və reportajların, publisistik yazıların müəllifidir.

**Problemin praktik əhəmiyyəti.** Yaşar Rzayevin yaradıcılığında cənub bölgəsində, xüsusilə də Lənkəranda nəsr janrının poyeziya ilə birgə inkişaf etməyinin şahidi oluruq.

**Ədəbiyyat**:

1. Rzayev, Y.H. Gecə eşalonu. Hekayələr. Bakı: Gənclik,-1972. - 32 s.
2. Rzayev, Y.H. Əks-səda. Bakı: Gənclik, -1981.- 102 s.
3. Əhədov, Ə.E. Ömrün uzaq illəri, yaxud “Yaddaşa qayıdış” //Ədəbiyyat qəzeti. -2023, 8 aprel.-s.19
4. Yusifli V. Ə., “Cənubdan gələn səslər” // Ədəbiyyat qəzeti.- 2023.- s.16

**Rəyçi: prof.İSLAM Qəribli**